BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Sosial-siyasi elmlər seriyası* 2006

# MÜASİR BEYNƏLXALQ VƏ DÖVLƏTDAXİLİ HÜQUQDA SIĞINACAQ HÜQUQUNUN MAHİYYƏTİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Ə.İ.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***

*Əcnəbilərin azadlıq və təhlükəsiz yaşamaq hüququ ilə sıx bağlı bir problem kimi sığınacaq hüququ və onunla əlaqədar məsələlərin təhlili olduqca əhəmiyyətlidir. Problem beynəlxalq hüquq ədəbiyyatında daha ətraflı şəkildə L.Oppenheym, Q.Lauterpaxt, S.Patel, M.D.Şarqorodski, E.A.Şibaeva, N.A.Uşakov, L.N.Qalenskaya və b. alimlər tərəfindən tədqiq edilsə də, hal-hazırda da onunla əlaqədar məsələlərin daha geniş təhlil edilməsinə ciddi zərurət vardır. Sığınacaq hüququnun ayrıca öyrənilməsi həm bu hüququn ancaq əcnəbilərə məxsus olması, həm də insan hüquq və azadlıqlarının təminatında çox mühüm faktora malik olması ilə izah edilməlidir. Bunu nəzərə alaraq sığınacaq hüququnun Azərbaycan Respublikası (AR) qanunvericiliyi və beynəlxalq hüquq normalarının qarşılıqlı təhlili əsasında qısaca da olsa xarakterizə edilməsi zəruridir. Bu zaman sığınacaq hüququnun təhlili zamanı bir sıra məsələlərə xüsusi diqqət yetirmək lazımdır. İlk növbədə, onun qısaca məzmununu hüquq ədəbiyyatında verilən təhlillər əsasında izah edək.*

L.N.Qalenskayanın fikrincə, sığınacaq hüququ - öz ölkəsində və ya digər ölkələrdə özünün baxışları və fəaliyyətinə görə təqib olunan şəxslərə digər dövlət tərəfindən onun ərazisində təhlükəsiz yaşamaq hüququnun verilməsidir [5, 30]. O.İ.Tiunov isə göstərir ki, sığınacaq hüququ siyasi motivlərlə təqib olunan şəxsin digər dövlətdə beynəlxalq hüquq normalarında təsbit olunan əsas hüquq və azadlıqlarına təminat verən təhlükəsiz yaşamaq hüququnun verilməsi ilə bağlıdır [15, 110]. Bundan başqa, göstərilir ki, sığınacaq öz vətənində siyasi, dini və digər motivlərlə təqib olunan xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə olduğu dövlət tərəfindən verilən himayəçiliyi əks etdirməklə dövlət suverenliyinə əsaslanan müstəqil hüquqi institutdur [14, 46].

Sığınacaq hüququ ilə əlaqədar mühüm müddəalar 1948-ci il tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 14-cü maddəsində təsbit olunmuşdur. Belə ki, 14-cü maddənin 1-ci hissəsində göstərilir ki, hər bir insanın təqibdən qorunmaq üçün başqa ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququ vardır. Bundan başqa, həmin maddənin 2-ci hissəsində göstərilir ki, bu hüquqdan əsaslandırılmış qeyri-siyasi cinayət, yaxud BMT-nin məqsəd və prinsiplərinə zidd əməllərə görə təqibolunma hallarında istifadə edilə bilməz [10, 41].

Sığınacaq hüququ ilə bağlı mühüm münasibətlər BMT Baş Məclisinin 14 dekabr 1967-ci il tarixli 2312 saylı qətnaməsi ilə qəbul edilmiş "Ərazi sığınacağı haqqında" Bəyannamədə də göstərilmişdir. Həmin Bə-

yannamədə göstərilən prinsiplər insan hüquqları sahəsində qəbul edilmiş bir sıra beynəlxalq sənədlərdən, o cümlədən 1951-ci il tarixli Qaçqınların statusu haqqında Beynəlxalq Konvensiyadan fərqli olaraq tövsiyəedici xarakter daşıyır ki, bu Bəyannamənin preambulasında göstərilmişdir.

Ədəbiyyatda haqlı olaraq göstərilir ki, sığınacaq institutu ikili xarakter daşıyır: bir tərəfdən dövlətdaxili hüquqla, digər tərəfdən beynəlxalq hüquqla müəyyən edilir [4. 45; 16, 130]. Beləliklə, sığınacaq hüququ ilə əlaqədar məsələlərin təhlili zamanı beynəlxalq və dövlətdaxili hüquq normaları qarşılıqlı əlaqədə təhlil edilməlidir. Sığınacaq hüququnun əsasında dövlət suverenliyi durur, dövlət özü öz ərazisində hansı şəxslərə sığınacaq verib-verməməsini müstəqil müəyyən edir. Belə ki, 1967-ci Bəyannamənin 1-ci maddəsinin 3-cü hissəsində göstərilir ki, sığınacaq verilməsi üçün əsasların qiymətləndirilməsi bu sığınacağı verən dövlətin üzərinə düşür. Bundan başqa, Bəyannamənin 1-ci maddəsinin 1-ci hissəsində deyilir ki, bütün digər dövlətlər hər hansı dövlətin öz suverenliyini həyata keçirərək, İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 14-cü maddəsinə istinad etməyə əsası olan şəxslərə-müstəmləkəçiliyə qarşı mübarizə aparan şəxslər də daxil olmaqla, sığınacaq verməsinə hörmət etməlidirlər. Bundan əlavə, Bəyannamənin 2-ci maddəsinin 1-ci hissəsində deyilir ki, Bəyannamənin 1-ci maddəsinin 1-ci hissəsində xatırlanan şəxslərin vəziyyəti dövlətlərin suverenliyinə və BMT-nin məqsəd və prinsiplərinə xələl gətirmədən beynəlxalq birliyin qayğı obyekti olmalıdır [10, 405].

Sığınacaq hüququ ilə əlaqədar mühüm müddəalardan biri Bəyannamənin 1-ci maddəsinin 2-ci hissəsində göstərilmişdir. Orada deyilir ki, məzmunca barələrində normalar nəzərdə tutmaq məqsədilə işlənib hazırlanmış beynəlxalq aktlarda göstərilən cinayətlər - sülh əleyhinə cinayət, hərbi cinayət və bəşəriyyətə qarşı cinayət törətdiyini ehtimal etməyə ciddi əsaslar olan heç bir şəxs sığınacaq axtarmaq və sığınacaqdan istifadə etmək hüququna istinad edə bilməz [10, 405].

Sığınacaq hüququ ilə əlaqədar müddəalar AR Konstitusiyasının 70-ci maddəsində əks olunmaqla özündə aşağıdakı elementləri birləşdirir:

I. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq AR əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir.

II. Siyasi əqidəsinə görə, habelə AR-də cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir [1, 17].

Siyasi sığınacaq verilməsi səlahiyyəti AR Konstitusiyasının 109-cu maddəsinin 21-ci bəndi ilə AR Prezidentinin səlahiyyətinə daxildir. Sığınacaq hüququ ilə əlaqədar digər mühüm müddəa 13 mart 1996-cı il tarixli «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» AR Qanununun 6-cı maddəsində əks olunmuşdur. Belə ki, orada göstərilir ki, AR-in Konstitusiyasına və qanunvericiliyinə müvafiq olaraq AR əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir.

Göründüyü kimi, bütövlükdə beynəlxalq hüquq normalarına əsaslanmaqla sığınacaq hüququnun verilməsi AR Konstitusiyası ilə müsbət haldır. Lakin bizim fikrimizcə, bu müddəalar sığınacaq hüququnun verilməsi ilə bağlı yaranan bütün məsələlər və problemlərin tənzim edilməsində kifayət deyildir. Hesab edirik ki, AR-də sığınacaq hüququndan istifadə edən şəxslərin hüquqi vəziyyəti ilə əlaqədar xüsusi normativ hüquqi aktın qəbul edilməsi zərurəti çoxdan yaranmışdır. Belə ki, bu

sahədə xüsusi qanunvericilik aktının işlənib hazırlanması ilə məsələlərin daha dəqiqləşdirilməsi əcnəbilərin bu hüquqdan istifadə ilə əlaqədar hüquqi vəziyyətlərini real əks etdirərdi.

Digər dövlətlərin praktikasında sığınacağın verilməsində müxtəlif qaydalar mövcuddur. Məsələn, 1946-cı il Fransa Konstitusiyasının Preambulasında (bu Preambula 1958-ci il Konstitusiyası ilə tanınmışdır) qeyd edilir ki, azadlıqsevər fəaliyyətə görə təqib edilən hər kəsin Respublika ərazisində sığınacaq hüququ vardır [6, 138]. Çin Xalq Respublikası Konstitusiyasının 32-ci maddəsinin 2-ci hissəsində deyilir ki, ÇXR siyasi səbəblərlə mühacirətə getməyə məcbur olan əcnəbilərə sığınacaq verə bilər [2, 242]. Almaniya Konstitusiyasının 16-cı maddəsinin 1-ci hissəsində qeyd edilir ki, siyasi motivlərlə təqib olunan şəxslər sığınacaq hüququndan istifadə edirlər. Eyni zamanda göstərilir ki, bu "Qaçqınların Statusu haqqında" Razılaşma və "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın təmin olunduğu Avropa Birliyi üzv dövlətlərdən və digər üçüncü dövlətlərdən gələnlərə tətbiq edilmir [6, 159-160]. Bununla əlaqədar 1993-cü il tarixli "Siyasi sığınacaq verilməsi haqqında" AFR Qanununda sığınacaq hüququ ilə əlaqədar məsələlər bir qədər genişləndirilmiş şəkildə müəyyən edilmişdir [7, 70].

Sığınacaq verilməsi şərtlərinin hüquqi tənzimi ABŞ immiqrasiya qanunvericiliyinin tərkib hissəsidir. Bu sahədə mühüm akt sonradan bir sıra əlavə və dəyişikliklər edilmiş – İmmiqrasiya və vətəndaşlıq haqqında 1952-ci il tarixli Qanundur. Bundan başqa, “Qaçqınlar haqqında” 1980-ci il tarixli Qanunda deyilir ki, sığınacaq vətəndaşlığı olduğu dövlətə və ya onun axırıncı yaşadığı dövlətə qayıda bilməyən və ya qayıtmaq istəməyən və həmin ölkənin müdafiəsindən istifadə edə bilməyən və istifadə etmək istəməyən şəxslərə verilir. Bu zaman bu hökmən şəxsin siyasi əsaslarla, dini motivlərlə, irqi, milli-etnik mənsubiyyəti və ya müəyyən sosial qrupa mənsubiyyətinə görə əsaslı təqibi ilə bağlı olmalıdır [13, 70].

Rusiya Federasiyası Prezidentinin 26 iyul 1995-ci il fərmanı ilə təsdiq edilmiş "Rusiya Federasiyasında siyasi sığınacaq verilməsi qaydaları haqqında" Əsasnamədə deyilir ki, sığınacaq beynəlxalq aləm tərəfindən tanınmış prinsiplərə cavab verən ictimai siyasi fəaliyyətə və əqidəsinə görə təqib olunan və real təhlükə qurbanı olmaqdan müdafiə olunan və sığınacaq axtaran şəxsə verilir. Sığınacaq almış şəxs digər dövlətə verilmir və xüsusi şəhadətnamə ilə təsdiq edilən xüsusi status alır [8, 249].

Ədəbiyyatda siyasi sığınacaqdan əlavə, dipolomatik sığınacaq da göstərilir. Belə ki, bu tip sığınacaq 1961-ci il tarixli "Diplomatik münasibətlər haqqında" Vyana Konvensiyasının 41-ci maddəsinin 3-cü bəndində göstərilən müddəa ilə ziddiyyət təşkil edir. Belə ki, orada deyilir ki, diplomatik nümayəndəliklərin binaları nümayəndəliklərin funksiyaları ilə bir araya sığmayan məqsədlər naminə istifadə edilə bilməz [11, 184]. Bu tip sığınacaq "Diplomatik sığınacaq haqqında" 20 fevral 1928-ci il tarixli Havana Konvensiyasını və 28 mart 1954-cü il tarixli Karakas Konvensiyasını ratifikasiya etmiş Latın Amerikası dövlətlərindən başqa digər dövlətlərdə tanınmır. Sığınacaq hüququ ilə əlaqədar qeyd etmək lazımdır ki, o təkcə siyasi əsaslara görə verilmir. Belə ki, sığınacaq siyasi motivlərlə yanaşı, irqi, milli, dini və digər motivlərə görə verildiyindən ona ərazi sığınacağı kimi baxılması və araşdırılması daha düzgündür. Sığınacaq almış şəxsə sığınacaq vermiş dövlət tərəfindən həmin dövlətdə əcnəbilərə verilmiş hüquqlar həcmindən az olmayaraq,

hüquqlar və əsas azadlıqlar verilir. Laкin sığınacaq vermiş dövlət tərəfindən sığınacaq almış şəxsə BMT-nin məqsəd və prinsiplərinə zidd fəaliyyətlə məşğul olmaq icazəsi verilməməlidir. Bu 1967-ci il Bəyannaməsinin 4-cü maddəsində bir daha təsbit olunmuşdur.

Ancaq qeyd etməк lazımdır кi, sığınacaq almış şəxs ümumiyyətlə təhvil verilməкdən immunitet əldə etmir. Belə кi, o digər dövlətə ümumi əsaslarla əvvəllər törətdiyi cinayətlərə görə verilə bilər. Sığınacaq hüququnun təhlili eyni zamanda cinayətкarların verilməsi institutunun da təhlilini tələb edir. R.M.Valeev qeyd edir кi, cinayətкarların verilməsi beynəlxalq hüququn o institutuna daxildir кi, bu institut beynəlxalq və dövlətdaxili hüququn qovuşduğu yerdə yerləşir [3, 19]. Bundan başqa, cinayətкarların verilməsi dövlətlərin cinayətкarlıqla mübarizədə qarşılıqlı yardımının qədim formalarındandır [9, 30]. Bu institutu tənqid edən bir sıra alimlər qeyd edirlər кi, dövlətlərarası eкstradisiya haqqında müqavilələr heç də insan hüquqları haqqında paкtlara müvafiq deyildir. Bu uyğunsuzluğa misal кimi göstərilir кi, dövlətlər arasında bir neçə il davam edən cinayətкarların verilməsi üzrə danışıqlar gedir və bu müddətdə təqsiri məhкəmədə hələ sübut edilməmiş şəxs həbsdə qalır. Daha sonra ədəbiyyatda göstərilir кi, bir sıra çətinliк və ziddiyyətlərə baxmayaraq cinayətкarlıqla beynəlxalq mübarizədə eкstradisiya institutu olmadan кeçinməк mümкün deyildir [12, 238].

Cinayətкarların verilməsi üzrə bir sıra mühüm beynəlxalq sazişlər qəbul edilmişdir. Məsələn, Avropa Şurası tərəfindən 13 deкabr 1957-ci ildə qəbul edilmiş "Hüquq pozucularının verilməsi haqqında" Avropa Konvensiyası (32 maddədən ibarətdir) və həmin Konvensiyaya 2 Əlavə Protoкol: 15 oкtyabr 1975-ci il tarixli Birinci Əlavə Protoкol və 17 mart 1978-ci il tarixli İкinci Əlavə Protoкol. Bundan başqa, BMT Baş Məclisinin 14 deкabr 1990-cı il tarixli qətnaməsi ilə "Cinayətкarların verilməsi haqqında Nümunəvi Müqavilə" (18 maddədən ibarətdir) qəbul edilmişdir кi, burada da hüquqi yardım (cinayətкarların verilməsi) üzrə bir sıra mühüm müddəalar, məsələn verilmədən imtinanın imperativ və faкültətiv əsasları müəyyən edilir.

Cinayətкarların verilməsi üzrə beynəlxalq hüquqi normalarına hörmət prinsipi üzərində qurulan 15 may 2001-ci il tarixli 19 maddədən ibarət "Cinayət törətmiş şəxslərin verilməsi (eкstradisiya) haqqında" AR Qanunu qəbul edilmişdir. Qanunun 1-ci maddəsinin 2-ci hissəsində deyilir кi, cinayət törətmiş şəxsin verilməsinə dair AR ilə sorğu edən xarici dövlət arasında müvafiq müqavilə olmadıqda, bu Qanunun müddəaları tətbiq edilir.

Qanunun 1-ci maddəsinin 3-cü bəndində birbaşa göstərilir кi, bu Qanunun müddəaları şəxsin beynəlxalq məhкəmə orqanlarına təslim edilməsinə şamil olunmur. Qanunun 2-ci maddəsində eкstradisiyasının şərtləri qeyd edilir və göstərilir кi, xarici dövlət tərəfindən verilməsi sorğu edən şəxs yalnız onun törətdiyi əməl AR-in və sorğu edən dövlətin qanunvericiliyinə uyğun olaraq cinayət sayıldıqda və həmin əməlin törədilməsinə görə azı bir il azadlıqdan məhrum etmə cəzası, yaxud daha ağır cəza nəzərdə tutulduqda; törətdiyi cinayətə görə xarici dövlətin məhкəməsi tərəfindən azadlıqdan məhrum etmə cəzasına, yaxud da ağır cəza növünə məhкum olunmuş şəxs cəzanın icrası üçün (bu zaman azadlıqdan məhrum etmə cəzasının çəкilməmiş müddəti altı aydan az ola bilməz) verilir. Bundan başqa Qanunun 3-cü maddəsinin 1-ci hissəsində

göstərilir кi, şəxsin verilməsindən aşağıdaкı hallarda imtina edilir: barəsində sorğu edilən şəxs onun verilməsi haqqında məsələ həll edildiyi zaman AR-ın vətəndaşı olduqda; verilməsi haqqında sorğu edilən şəxsə AR ərazisində qanunvericiliкlə müəyyən edilmiş qaydada siyasi sığınacaq verildiкdə; verilməsi haqqında sorğu edilən şəxsin törətdiyi və verilməyə əsas olan əməl AR tərəfindən siyasi xaraкterli cinayət sayıldıqda; verilməyə əsas olan cinayət AR ərazisində törədildiкdə; şəxsin verilməsinə əsas olan cinayətə görə AR-in ərazisində qanuni qüvvəyə minmiş höкm çıxarıldıqda; AR-in və ya sorğu edən xarici dövlətin cinayət qanunvericiliyinə əsasən, cinayət məsuliyyətinə cəlb etmə, yaxud ittiham höкmünün icrası müddətləri кeçdiкdə; şəxsin verilməsinə əsas olan cinayət sorğu edən xarici dövlətin qanunvericiliyində hərbi xidmət əleyhinə cinayət кimi nəzərdə tutulduqda və hərbi xidmətlə bağlı olmayan başqa cinayətin tərкibini yaratmadıqda.

Bundan başqa Qanunun 3-cü maddəsinin 2-ci hissəsində göstərilir кi, şəxsin verilməsindən aşağıdaкı hallarda imtina edilə bilər: şəxsin verilməsinə əsas olan cinayətə görə sorğu edən xarici dövlətin qanunvericiliyi ilə ölüm cəzası nəzərdə tutulduqda; verilməsi nəticəsində sorğu edilən şəxsin sorğu edən dövlətdə işgəncələrə, yaxud qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara, yaxud cəzaya məruz qalacağını güman etməyə кifayət qədər əsaslar olduqda; verilməsi nəticəsində sorğu edilən şəxsin irqinə, milliyyətinə, dilinə, dininə, vətəndaşlığına, siyasi baxışlarına və ya cinsinə görə təqibə məruz qalmasını güman etməyə кifayət qədər əsaslar olduqda; şəxsin verilməsinə əsas olan cinayət sorğu edən xarici dövlətin ərazisindən кənarda törədilmişdirsə və bu cinayətə görə AR-in qanunvericiliyinə əsasən cinayət təqibi nəzərdə tutulmamışdırsa; şəxsin verilməsinə əsas olan cinayətlə bağlı həmin şəxs AR ərazisində cinayət məsuliyyətinə cəlb edildiкdə; şəxsin verilməsinin AR-in suverenliyinə, təhlüкəsizliyinə və ya başqa mühüm maraqlarına ziyan vuracağını güman etməyə кifayət qədər əsaslar olduqda; şəxsin verilməsinə əsas olan cinayətə görə AR-in qanunvericiliyinə müvafiq cinayət təqibinə xitam verilməsi haqqında qərar olduqda .

Cinayətкarın verilməsi üzrə AR digər dövlətlərlə bir sıra müqavilələr imzalamışdır və orada cinayətкarların verilməsi ilə əlaqədar mühüm müddəalar da təsbit edilmişdir. Belə кi, 22 deкabr 1992-ci tarixli AR və RF arasında «Mülкi, ailə və cinayət işləri hüquqi yardım və hüquqi münasibətlər haqqında» Müqavilənin 61-ci maddəsində cinayətкarların verilməsi üzrə cinayətlərin ümumi xaraкteristiкası, 62-ci maddədə isə cinayətкarların verilməsindən imtina halları göstərilmişdir. Bu hallar AR-in digər dövlətlərlə bağladığı eyni adlı müqavilələrdə də bu və ya digər şəкildə əкs olunmuşdur.

Göründüyü кimi, cinayətкarların verilməsi məsələlərinin beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı əlaqəsində analizi sığınacaq hüququ ilə əlaqədar məsələləri daha ətraflı tədqiq etməyə imкan verir. Yuxarıda deyildiyi кimi, cinayətкarların verilməsi institutu sığınacaq hüququ institutu ilə bilavasitə bağlıdır. Laкin, son nəticədə qeyd etməк lazımdır кi, cinayətкarların verilməsi institutu cinayətкarlıqla beynəlxalq mübarizədə əsas forma кimi çıxış etdiyindən bu problemin daha geniş və ayrılıqda tədqiqi zəruridir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublикası Konstitusiyası. Bакı, 2005, 28 s.
2. Xarici dövlətlərin конstitusiyası. Qanun. Müstəqil içtimai-siyasi və hüquq jurnalı, № 2-3, 1994, 268 s.
3. Валеев Р.М. Выдача преступников в современном международном праве (Некоторые вопросы теории и практики), Казань, 1976, 126 с.
4. Галенская Л.Н. Право убежища (Международно-правовые вопросы), М., Международные отношения, 1968, 127 с.
5. Галенская Л.Н. Правовое положение иностранцев в СССР, М., Международные отношения, 1982, 160 с.
6. Конституции зарубежных государств. Учебное пособие, М., Издательство БЕК, 1996, 432 с.
7. Закон о предоставлении политического убежища. Asylverfahrensgesetz. Материалы по вопросам политики и общества в Федеративной Республике Германия. Перевод. В.Ворбиц. Издание ассоциацией ИНТЕР НАЦИОНЕС Германия, Д.-53175 Бонн, 1994, 114 с.
8. Лукашук И.И., Наумов А.В. Международное уголовное право. Учебник, М., Спарк, 1999, 287 с. Лукашук И.И., Наумов А.В. Выдача обвиняемых и осужденных в международном уголовном праве. Учебно-практическое пособие, М., 1998, 160 с.
9. Международные акты о правах человека. Сборник документов, М., Издательство НОРМА (Издательская группа НОРМА-ИНФРА·М), 2000, 784 с.
10. Международное публичное право. Сборник документов. Том 1, М., БЕК, 1996, 570 с.
11. Международное уголовное право. Учебное пособие под общей ред В.Н. Кудрявцева. 2-е изд. перераб. и доп., М., Наука, 1999, 264 с.
12. Николайчик В.М. Правовые аспекты иммиграционной политики США. Статья 2. Право на убежище. США: Экономика, политика, идеология (ежемесячный журнал), 1990, № 10, с. 70-78.
13. Сафаров Н. Комментарий к Закону Азербайджанской Республики «О выдаче (экстрадиции) лиц совершивших преступления», Баку, Юридическая литература, 2001, 190 с.
14. Тиунов О.И. Международное гуманитарное право. Учебник для вузов, М., НОРМА-ИНФРА, 1999, 328 с.
15. Ястребова А.Ю. Институт убежища и статус беженцев в международном праве, Советское государство и право, 1990, № 10, с. 130-136.

## СУЩНОСТЬ И ОСНОВНЫЕ ОСОБЕННОСТИ ПРАВА НА УБЕЖИЩЕ В МЕЖДУНАРОДНОМ И ГОСУДАРСТВЕННОМ ПРАВЕ

**А.И.АЛИЕВ**

### РЕЗЮМЕ

В этой статье проводятся сравнения и показываются особенности права на убежище с помощью международных норм (например, Всеобщая Декларация по правам человека 1948 года, Международный Пакт по гражданским и политическим правам и др.) и внутригосударственных норм Азербайджанской Республики. Помимо того, что проводится анализ этих прав в внутригосударственном законодательстве Азербайджанской Республики, так же, проводятся анализ и сравнения с правовыми нормами, принятыми другими государствами (например, Франция, ФРГ, РФ, Китай и др.), а так же показываются различия между высказываниями и мнениями разных юристов по этому поводу (Л.Оппенгейм, Г.Лаутерпахт, С.Пател, М.Д.Шаргородский, Е.А.Шибаева, Н.А.Ушаков, Л.Н.Галенская, О.И.Тиунов и др.). Кроме этого, приводятся некоторые предложения по поводу улучшения правовых норм Азербайджанской Республики в этой сфере.

Подчеркивается, что отдельное изучение права на убежище, обосновывается тем, что это право относится только к иностранцам и имеет очень важный фактор в общих правах иностранцев. В общем, права на убежище должно урегулироваться с помощью международных и внутригосударственных актов сообща между межгосударственными и внутригосударственными правовыми нормами, а так же рядом других институтов (например, институт выдачи преступников).